# Gədəbəy toponimikasında qədim türk mənşəli tayfaların izləri

**Azərbaycan xalqının qədim soykökünün araşdırılmasında yazılı abidələrlə yanaşı tarixin canlı şahidləri olan zəngin Azərbaycan toponimikasının da mühüm rolu vardır. Xalqın yaşadığı əraziyə verdiyi adlar heç vaxt təsadüfi olmamışdır. Bu adlar həmişə xalqın adını və tarixini yaşatmışdır. Bu baxımdan Azərbaycan toponimikası azərbaycanlıların etnik tarixinin əsasını təşkil edən türk mənşəli tayfaların adının məskunlaşma tarixinin, yayılma istiqamətinin, onların qədim mənəvi dünyasının müəyyənləşdirilməsində tarixi bir faktdır.**

Türk mənşəli tayfaların ən qədim məskənlərindən biri, bəlkə də ən ilki olan Azərbaycan qədim toponimik sistemə malikdir və bu toponimlərin böyük əksəriyyəti müxtəlif türk mənşəli tayfaların adını əks etdirən etnotoponimlərdir. Belə etnotoponimlər eyni zamanda ümumtürk tarixinin qədim dövrünün öyrənilməsi baxımından da qiymətli mənbədir.

Arxeoloji, etnoqrafik, həmçinin toponomik materiallar Azərbaycanın Gədəbəy bölgəsinin qədim dövrlərindən bəri, hələ eradan əvvəl Azərbaycan ərazisində qarqar, daha sonra hun, katak kimi türk mənşəli tayfaların məskun olduğunu söyləməyə əsas verir. Bu həqiqəti ilk növbədə Gədəbəy toponiminin etimoloji izahı da təsdiq edir.

Gədəbəy toponiminin mənşəyi ilə bağlı tədqiqatçılar müxtəlif fikirlər söyləmişlər. Çox təəssüf ki, bəzən Gədəbəy sözünün fars mənşəli «gədə» və türk mənşəli «bəy» söz birləşməsindən əmələ gəlməsi kimi izah etmək meylləri də olmuşdur. Bir çox halda tədqiqatçılar Gədəbəy toponimini Dədəbəy şəxs adı ilə bağlayaraq zaman keçdikcə Dədəbəyin Gədəbəy şəklində təhrif olduğunu söyləyirlər. Görkəmli toponimist-alim Qiyasəddin Qeybullayev isə doğru olaraq Gədəbəy toponiminin qədim türk mənşəli toponim olduğunu söyləmişdir. Lakin o, bu toponimi Gədəbəy ərazisinin coğrafi xüsusiyyətləri ilə əlaqələndirərək kədə «gözətçi», «keşikçi» və bək «təpə» sözlərindən ibarət olmaqla «gözətçi təpəsi», «qaravultəpə» kimi izah etmişdir. Lakin aparılan araşdırmalar Gədəbəy toponiminin o cümlədən bu ərazidəki bir sıra toponimlərin qədim tayfa adları ilə bağlı olması fikrini söyləməyə əsas verir.

Məlumdur ki, hələ eranın ilk əsrlərində Ön Asiyadan hunlarla bərabər Azərbaycan ərazisinə gələn türk mənşəli tayfalardan biri dəkataklar olmuşdur. Fikrimizcə, Gədəbəy adı bu tayfanın adı ilə bağlı olaraq «katak» və türk mənşəli «bəy» söz birləşməsindən ibarət etnotoponimdir. Məlumdur ki, bəy qədim türk cəmiyyətində titul, vəzifə funksiyasını ifadə edir, tayfa başçısı, gözətçi mənalarını da daşıyır. Beləliklə, Gədəbəyin qədim katak tayfalarının başçısının şərəfinə adlandırılan yer adı olduğunu ehtimal etmək olar. Tarixi-toponimik faktlar da bu mülahizəni təsdiqləyir. Belə ki, tarixi mənbələrdə Gədəbəy toponiminin Qetabek, Ketabay, Kotakbek kimi fonetik variantlarına rast gəlinir. Azərbaycan ərazisində antik dövrdə mövcud olan yer adları və tayfalar haqqında məlumat verən qədim alban müəllifi Mixitar Qoş da Qetabek adlı ərazinin və bu ərazidə qataq adlı tayfa başçısının adını çəkir. Mənbədəki məlumata görə adı çəkilən Qetabak ərazisi müasir Gədəbəy ərazisi ilə lokalizə olunur. Bundan başqa Gədəbəy kəndlərindən birinin də Katak tayfasının adını əks etdirən Gödəkdərə adlanması bu ərazidə katak tayfalarının yayılmasını təsdiq edir. Ümumiyyətlə, bu tayfanın adı XIX əsrədək Azərbaycanın bir çox bölgələrinin toponimikasında əks olunmuşdu. Məsələn, Quba qəzasında Kötüklü dağ, Şəki rayonunda Kötüklü kəndi, Tovuz rayonunda Gödək dağı kimi yer adlarında katak tayfasının adı qorunub saxlanmışdır. Bundan başqa, Səlcuq tayfalarının bir qolunun Gödəkli adlanması, XIX-XX əsrin əvvəllərinədək Qazax bölgəsində Gödəkli tayfasının mövcud olduğu məlumdur.

Gədəbəy ərazisinin XIII-XIV əsrlərə aid mənbələrdə Kalekun adlanması da məlumdur. Deməli bu ərazi (Kalk kun) vaxtı ilə hun qalası kimi tanınmışdır. Bu məlumat bir daha təsdiq edir ki, hələ eranın əvvəllərindən Azərbaycana axışan hun və katak tayfaları Gədəbəy ərazisini özlərinə məskən seçmişdilər. Çünki, xalqın yaşadığı əraziyə verdiyi ad təsadüfi xarakter daşımır, xalqın adını və tarixini yaşadır. Ümumiyyətlə, Gədəbəy ərazisində hun etnoniminə tez-tez rast gəlinməsi (məs. Nərimankənd yaxınlığında Xınnı dərəsi, hazırda Novospasovka adlanan Xunus kəndi və s.) türk mənşəli hun tayfalarının çox qədim dövrlərdən etibarən Gədəbəydə yurd saldığını təsdiq edir.

Mənbələrdən məlumdur ki, eradan əvvəl VIII-VII əsrlərdə Azərbaycana axışan türk mənşəli tayfalardan biri də qarqarlar olmuşdur. Azərbaycan ərazisi ilə lokalizə edilən Xarxar ölkəsinin adı çəkilir. XIX əsrə aid mənbələrdə adını əks etdirən bir sıra kənd adlarının mövcud olması barədə məlumatlar var. Hazırda rayonun yalnız Gərgər və Xarxar kəndlərinin adından qarqar etnonimi qorunub saxlanmalıdır.

Zəngin toponimik sistemə malik olan Gədəbəydə tayfa adlarını əks etdirən toponimlərlə bərabər yerli əhalinin qədim dini dünyagörüşlərini və adət ənənələrini əks etdirən toponimlər də qorunub saxlanmışdır. Qədim şumerlərin ay ilahəsi Nanna Sinin simvollarından biri olan aypara nişanı Azərbaycanın bir çox bölgələrində olduğu kimi Gədəbəy ərazisində də istər arxeoloji-etnoqrafik, istərsə də toponomik materiallarda əks olunmuşdur. Məsələn, bu ərazidəki Aytala, Aykənd toponimlərində qədim türk xalqlarının kosmoqonik inamlarının mərkəzində duran aya sitayişin izləri özünü büruzə verir. Görünür, Aytala adlanan bu qədim kənd vaxtilə yerli sakinlərin göy üzünü müşahidə etmək, astral inamlarla bağlı ayinlər icra etmək üçün toplaşdığı qədim bir ibadət yeri olmuşdur. Ümumiyyətlə, Gədəbəy bölgəsində aya sitayişin izlərini daşıyan bir çox qədim abidələr qorunub saxlanmışdır. Belə qədim memarlıq abidələrindən el arasında «Ay məqbərəsi» kimi tanınan qədim ibadət yerinin adıdır. Bu məbədin divarlarında müxtəlif göy cisimləri – günəş, ay, ulduz rəsmlərinə rast gəlinir. Bundan başqa, rayon ərazisində tunc dövrü abidəsi olan, qövsvari – aypara formasında inşa edilən «Çanaxçı» məbədi də yerli əhalinin qədim mənəvi dünyasının əsasını təşkil edən Ay kultunun nişanəsidir. Gədəbəy ərazisində aparılan arxeoloji qazıntılar zamanı tunc dövrünə aid aypara şəkilli tunc xəncərlər də aşkar edilmişdir. Arxeoloji tədqiqatlar bu xəncərlərin Ön Asiyadan gətirildiyini təsdiq etmişdir. Bu məlumat Gədəbəyin qədim əhalisinin türk mənşəli tayfaların məskəni olan Ön Asiya ilə iqtisadi, etno-mədəni əlaqələrini təsdiq edir.

Gədəbəy ərazisindəki Arıqdam, Arısu, Arıqıran kimi kənd adları da qədim türk mənşəli toponimlərdir. Təəssüf ki, bəzən tədqiqatçılar Arıqdam toponimini kasıb evlər olan yaşayış yeri kimi izah edirlər. Lakin fikrimizcə Arıqdam qədim türk dillərindəki «arıı», «arıq» - saf, pak, ləkəsiz və «dam» - tikili, ev sözbirləşməsindən ibarətdir. Bu baxımdan Arıqdam, Arısu kimi toponimlərin qədim sakinlərin bu əraziləri müqəddəsləşdirməsi (pak, müqəddəs ev, pak su) ilə bağlı yarandığını ehtimal etmək olar. Bu gün el arasında «Aydan arı, sudan duru» ifadəsi də təmizlik, paklıq mənasında işlənir. «Kitabi-Dədə Qorqud»da da arı su – saf su mənasında işlənmişdir. Eyni zamanda digər klassik mənbələrdə də arı söylədiyimiz mənanı ifadə etmişdir. Maraqlıdır ki, bu gün Gədəbəy camaatı arasında «araylı su» ifadəsini işlədirlər.

Beləliklə, Azərbaycanın ən qədim türk məskənlərindən biri olan Gədəbəy bölgəsinin toponimikası qədim türk mənşəli tayfaların hələ eradan əvvəl Gədəbəy bölgəsində məskun olduğunu təsdiq edən, onların qədim dünyagörüşlərini araşdırmağa kömək edən zəngin mənbədir. Keçmişimizin yadigarı olan bu qədim yer-yurd adlarının gələcək nəsillər tərəfindən mənimsənilməsi üçün onların mənşəyinin araşdırılması zəruridir.

**● Afət ALLAHVERDİYEVA,**
*Gədəbəy rayon tarix-diyarşünaslıq muzeyinin direktoru*